**TƏSDİQ EDİRƏM**
**"Black Rams Uniform" MMC- nin Direktoru**

**Qaraxanlı Elgiz Fəxrəddin __________**
**"27" iyul 2023-cü il**

AZƏRBAYCAN RESPUBLİKASI Məhdud Məsuliyyətli Cəmiyyəti BLACK RAMS UNIFORM Limited Liability Company AZERBAIJAN REPUBLIC

# KEYFİYYƏT SİYASƏTİ

***Hazırki keyfiyyət siyasəti ali rəhbərlik tərəfindən rəsmi şəkildə bəyan edilən təşkilatın keyfiyyət sahəsində ümumi niyyətləri və inkişaf istiqamətləridir və bu baxımdan bütün maraqlı tərəflər üçün əlçatan olmalıdır.***

**BRU.KİS.S.01 KEYFİYYƏT SİYASƏTİ**

## ÜMUMİ

Hazırki siyasət keyfiyyəti idarəetmə sisteminin tətbiqi **"Black Rams Uniform" MMC** strateji qərarıdır və təşkilatın ümumi fəaliyyətini yaxşılaşdırmağa kömək edir və dayanıqlı inkişafyönümlü təşəbbüslər üçün möhkəm zəmin yaradır.

Keyfiyyəti idarəetmə sisteminin tətbiqi təşkilata aşağıdakı potensial üstünlüklər qazandıra bilər:

a) Qanunvericiliyin və tənzimləmənin tələblərinə və müştərinin istəyinə cavab verən məhsul və xidmətlərin davamlı şəkildə təmin edilməsi bacarığı;

b) istehlakçıların məmnunluğunun artırılması üçün imkanların yaradılması;

c) keyfiyyəti idarəetmə sisteminin müəyyən edilmiş tələblərə uyğunluğununümayiş etdirmək imkanı.

**"Black Rams Uniform" MMC** öz fəaliyyətində keyfiyyəti idarəetmə prinsiplərinə əsaslanır. Bu xarakteristikalar özündə hər bir prinsipin şərhini, onun təşkilat üçün rasional şəkildə əhəmiyyətini, bu prinsipin faydaları və tətbiqi ilə təşkilatın fəaliyyətinin yaxşılaşmasına dair nümumələri ehtiva edir.

Müştəri yönümlülük; Liderlik; Prosesə şəxslərin cəlb oluması; Proses yanaşması;

Təkmilləşdirmə; Faktlar əsasında qərar qəbulu; Səmərəli əlaqələr bizim üçün əsasdır.

## ƏHATƏ DAİRƏSİ

Hazırki siyasət keyfiyyəti idarəetmə sistemlərinə dair tələbləri müəyyənləşdirir ki, təşkilat:

a) müştəri, eləcə də müvafiq qanuni və tənzimləyici tələblərlərə cavab verən məhsul və xidmətləri davamlı qaydada istehsal etmək bacarığını göstərmək ehtiyacı duyur və,

b) keyfiyyəti idarəetmə sisteminin səmərəli tətbiqi vasitəsilə, onuntəkmilləşdirməsi və müştəri, eləcə də müvafiq qanuni və tənzimləyici tələblərlərə uyğunluğun təmin edilməsi prosesləri də daxil olmaqla, istehlakçı məmnunluğunun artırılmasını öz qarşısına məqsəd qoyur.

Bu siyasət **"Black Rams Uniform" MMC** obyektlərində və obyektlərdən kənar məkanlarda öz vəzifələrini yerinə yetirdikləri zaman Şirkət tərəfindən nəzarətolunan bütün iş yerlərinə və bütün işçilərinə şamil olunur, həmçinin, Şirkətin podratçılarına, təchizatçılarına, ziyarətçilərə, ictimaiyyətin nümayəndələrinə və bütün əlaqəli tərəflərə tətbiq olunur.

Hazırki siyasət, bu və ya digər maddi və qeyri-maddi aktivlərin istehlakçısı olaraq Şirkətlə qarşılıqlı fəaliyyət göstərən digər təşkilat və qurumlara da aiddir.

Partnyorlar və əlaqəli maraqlı tərəflər bu siyasətin Şirkət üçün vacibliyindən xüsusi xəbərdar edilməli və eyni və ya oxşar siyasəti standartı tətbiq etməyəhəvəsləndirilməlidir..

# TƏLƏBLƏR

## 1. PROSES YANAŞMASI

1.1. **"Black Rams Uniform" MMC** bu siyasətlə istehlakçıların tələblərinə cavab verməklə müştəri məmnunluğunun artırılması məqsədilə keyfiyyəti idarəetmə sisteminin işlənilməsi, tətbiqi və səmərəliliyinin artırılması üçün proses yanaşmasının qəbulunu təşviq edir. Proses yanaşmasının qəbuluna dair vacib hesab edilən xüsusi tələblər aydın göstərilmişdir.

1.2. Qarşılıqlı əlaqədə olan prosesləri sistem şəklində qavramaq və idarə etmək təşkilatın nəzərdə tutduğu nəticələrə nail olması və fəaliyyətinin səmərəliliyi üçün imkan yaradır. Bu yanaşma təşkilata sistemin prosesləri arasında qarşılıqlı əlaqələri və asılılığı idarə etməyə imkan verir ki, bu da təşkilatın ümumi fəaliyyətinin təkmilləşdirilməsinə şərait yaradır.

1.3. Proses yanaşmasına təşkilatın keyfiyyət siyasəti və strateji hədəflərinə uyğun olaraq nəzərdə tutulmuş nəticələrə nail olması üçün proseslər və onların qarşılıqlı təsirlərinin sistematik təyinatı və idarəedilməsi daxildir.

1.4. Qlobal miqyasda uyğunluğun və səmərəliliyin artırılması üçün fəaliyyət göstərən inteqrasiya olunmuş sistemlər (məsələn, məlumat təhlükəsizliyi, əməyin mühafizəsi və təhlükəsizlik texnikası, ətraf mühitin mühafizəsi və keyfiyyət) təşviq olunur.

## 2. RİSK ƏSASLI DÜŞÜNCƏ

Risk əsaslı düşüncə keyfiyyəti idarəetmə sisteminin səmərəliliyinə nail olmaq üçün əsasdır. Risk əsaslı düşüncə konsepsiyası məsələn potensial uyğunsuzluqları aradan qaldırmağa, meydana çıxan istənilən uyğunsuzluğun təhlilinə və uyğunsuzluğun nəticələrinə əsasən onların təkrarlanmasının qarşısının alınması üçün qərarların qəbul edilməsinə istiqamətlənmiş preventiv fəaliyyətlərin yerinə yetirilməsi də daxil olmaqla bu standartın əvvəlki redaksiyasında qismən göstərilmişdir.

Bu standartın tələblərinə cavab vermək üçün müəssisə risk və imkanlarla əlaqəli fəaliyyətləri planlaşdırmalı və tətbiq etməlidir. Risk və imkanlara istiqamətlənmiş səylər keyfiyyəti idarəetmə sisteminin səmərəliliyinin artırılması, daha yaxşı nəticələrə nail olmaq və mənfi nəticələrin aradan qaldırılması üçün əsas yaradır.

İmkanlar qarşıya qoyulan nəticələrə nail olmaq üçün əlverişli şəraitdə meydana çıxır, məsələn, təşkilat üçün müştəri cəlb edilməsi, yeni məhsul və xidmət təqdim edilməsi tullantıları azaldılmasına və məhsuldarlığın artırılması kimi şərtlərin məcmusu. İmkanların qarşılanması üçün tədbirlər həmçinin əlaqəli risklərin nəzərdən keçirilməsini də əhatə edə bilər. Risk qeyri- müəyyənliyin nəticəsidir və istənilən qeyri-müəyyənliyin müsbət və mənfi təsiri ola bilər. Riskdən irəli gələn müsbət meyllər imkanlar yarada bilər, lakin riskin bütün müsbət təsirləri imkanla nəticələnə bilməz.

## 3. İDARƏETMƏ SİSTEMLƏRİ ÜZRƏ DİGƏR STANDARTLARLA QARŞILIQLI ƏLAQƏ

Keyfiyyəti idarəetmə sistemi İSO tərəfindən onun idarəetmə sistemləri üzrə beynəlxalq standartları arasında uzlaşmanın artırılması üçün çərçivə sənədidir.

Keyfiyyəti idarəetmə sistemi standartı təşkilata PDCA tsikli və risk əsaslı düşüncə ilə birlikdə proses yanaşmanı tətbiq etməyə və öz idarəetmə sistemini digər idarəetmə sistemləri üzrə standartların tələblərinə uyğunlaşdırmağa və inteqrasiya etməyə imkan yaradır.

Bu beynəlxalq standart ISO 9000 və ISO 9004 standartları aşağıdakı şəkildə əlaqəlidir:

- İSO 9000 "Keyfiyyəti idarəetmə sistemi. Əsas müddəalar və lüğət" standartı bu standartın düzgün başa düşülməsi və tətbiqi üçün əsas yaradır;
- İSO 9004 "Təşkilatın dayanıqlı uğuru üçün idarəetmə - Keyfiyyəti idarəetmə yanaşması" standartı bu beynəlxalq standartın tələblərindən kənar inkişaf yolu seçmiş təşkilatlar üçün rəhbəredici sənəddir.

Əlavə B İSO/TC176 tərəfindən işlənib hazırlanmış keyfiyyəti idarəetmə və keyfiyyəti idarəetmə

sistemlərinə dair digər beynəlxalq standartları üzrə ətraflı məlumatları ehtiva edir.
Bu beynəlxalq standart ətraf mühitin idarə edilməsi, əməyin sağlamlığı və təhlükəsizliyinin idarə edilməsi və ya maliyyə idarə edilməsi kimi digər idarəetmə sistemlərinə dair spesifik tələbləri əks etdirmir. Bu standartın tələblərinə əsaslanan hazırlanmış spesifik sektoral keyfiyyət standartları bir neçə sektor üçün işlənmişdir. Bu standartların bəziləri keyfiyyəti idarəetmə sisteminə dair əlavə spesifik tələbləri müəyyənləşdirir, bəziləri isə xüsusi sektorlar üzrə bu beynəlxalq standartın tətbiqi üçün rəhbəredici göstərişlərlə məhdudlaşır.

**"Black Rams Uniform" MMC** – fəaliyyətini korporativ sosial məsuliyyət siyasəti çərçivəsində həyata keçirən vahid bir missiya, məqsəd və vəzifələr sistemi ilə birləşən bir şirkətdir.
**"Black Rams Uniform" MMC missiyası** – müştərinin ehtiyac və hədəflərindən asılıolmayaraq, müştəri təşkilatının ölçüsü və quruluşundan, istehsal olunan məhsulvəgöstərilən xidmətlərdən, istifadə olunan təhlükəsizlik tələblərindən,funksiyalarından və təşkilati proseslərindən asılı olmayaraq ölkədaxili vəxaricdəki fiziki və hüquqi şəxslərə yüksək ixtisaslı işlərin planlaşdırılması,dəstəyi, dizaynı, idarəedilməsi və istismarı sahəsində xidmətlər göstərməkdir. **"Black Rams Uniform" MMC işçiləri** öz səriştələrini və təcrübələrini daim artıranbir mütəxəssis komandasıdır. **"Black Rams Uniform" MMC idarəetmə sistemi** qarşıya qoyulmuş hədəflərə çatmaq, məxfiliyi, bütövlüyü, risklərin idarə edilməsi və imkanlarını həyata keçirilməsi proseslərinin düzgün idarə olunduğuna maraqlı tərəflərin əmin olmasına və inamını təmin etmək yolu ilə bütün maddi və qeyri-maddi aktivlərdən istifadə imkanlarını qorumağa yönəlmişdir.

## ŞİRKƏTİN ƏSAS MƏQSƏDLƏRİ

**İstehlakçıların** tələblərinə, müqavilə tələblərinə, tətbiq olunan qanunvericilik və digər normativ hüquqi, nizamlayici və tənzimləyici tələblərə cavab verən yüksək ixtisaslı xidmətlər göstərmək.
**Keyfiyyət** menecment sistemlərinin tətbiqi, ümumi fəaliyyətinin yaxşılaşdırılmasına kömək edə biləcək və davamlı inkişaf təşəbbüsləri üçün möhkəm zəmin yarada biləcək sistem qurmak.

## ŞİRKƏTİN MENECMENTİNİN ƏSAS PRİNSİPLƏRİ

**İnkişaf strategiyası** ilə əlaqəli və idarəetmənin effektivliyinə təsir edən konteksti, xarici və daxili amilləri, şərtləri anlamaq.
**Proses yanaşma** prinsipi, prosesləri və onların qarşılıqlı təsirlərini planlaşdırmağa, proseslərin tələb olunan mənbələrlə təmin olunmasına və dəyişiklikləri idarə etməyə imkanlar yaratmaq.
**Risk menecmenti** prinsipinə əsaslanaraq fəaliyyətin səmərəliliyinə təsir edən amilləri müəyyən etmək, fəaliyyət göstəricilərini qiymətləndirmək və təhlil etmək, bu göstəricilərin qiymətləndirilməsini müəyyənləşdirmək, riskləri idarə etmək və imkanları reallaşdırmaq üçün tədbirləri planlaşdırmağa imkanlar yaratmaq.
**Tələblərin fasiləsiz yerinə yetirilməsi**, bütün maraqlı tərəflərin gələcək ehtiyac və gözləntilərinin qabaqcadan nəzərə alınması metod və prinsipinə əsaslanaraq şirkətə müasir iş gerçəkliklərini qarşılamağa imkan yaratmaq

## ROLLAR VƏ VƏZİFƏLƏR

- **Status / vəzifə - Rollar və vəzifələr**
- **Şirkət rəhbərliyi -** Siyasətin təsdiqinə görə məsuliyyət daşıyır.
- **İcraçı direktor -** Siyasətin sahibini təyin edir, onu təsdiqləyir və həyata keçirilməsinə

nəzarət edir. **Keyfiyyətə nəzarət şöbəsi - "Black Rams Uniform"** MMC Keyfiyyət məsələləri üzrə İcraiyyə Komitəsi qarşısında və Keyfiyyət risklərinin qrupda düzgün uçotunun aparılması və müvafiq hallarda icraiyyə komitəsinin diqqətinə çatdırılmasına görə ümumi məsuliyyət daşıyan siyasət sahibidir. Şirkətin Keyfiyyət sahəsində strategiya, yönləndirmə, səmərəliliyin idarə edilməsi, idarəetmə sistemi, siyasətlər və standartlarına görə ümumi məsuliyyət daşıyır.

**Şirkətin bölmə rəhbərləri və aparıcımenecerləri** - Nümunə göstərməyə və bu siyasətin və müvafiq standartların həyata keçirilməsinin və yerinə yetirilməsinin təmin edilməsinə, həmçinin siyasət və onun tələbləri barədə bütün müvafiq əməkdaşların məlumatlandırılmasına görə məsuliyyət daşıyır. Keyfiyyət və təhlükəsizlik risklərinin lazımi şəkildə qiymətləndirilməsini, nəzarət olunmasını və haqqında məlumatın verilməsini, eləcə də bütün müvafiq personalın öz vəzifələrini keyfiyyət və müvafiq risklər və tətbiqolunan nəzarət tədbirləri barədə kifayət qədər biliklərlə yerinə yetirmək üçün lazımi hazırlıq keçməsini təmin etmək.

**Podratçılar, təchizatçılar və ziyarətçilər dədaxil olmaqla, "Black Rams Uniform" MMC daxilində bütün müəssisələrin rəhbərliyi, daimi və muzdlu işçiləri -** Bu siyasətə riayət olunmasına və əməyin mühafizəsi və təhlükəsizlik texnikası ilə bağlı hadisələr,istehsal təhlükəsizliyi iləbağlı hadisələr və qeyri-standart şərait barədə məlumatlandırmağa görəcavabdehdir.

# LÜĞƏT

"Black Rams Uniform" **MMC obyekti**

Birbaşa "**Black Rams Uniform**" MMC işləri aparılan mülkiyyətə aid olan və ya icarəyə götürülmüş istənilən yer.

**Planlaşdır-Yerinə yetir-Nəzarət et-Təkmilləşdir tsikli**

PDCA tsiklini aşağıdakı şəkildə qısa formada təsvir etmək olar:

- Planlaşdır: sistemin və onun proseslərinin məqsədlərinin işlənib hazırlanması, həmçinin istehlakçıların tələblərinə və təşkilatın siyasətinə uyğun nəticələrə nail olmaq üçün zəruri resursların müəyyən olunmasi, risklərin və imkanların cavablandırılması;
- Yerinə yetir: planlaşdırılanların yerinə yetirilməsi;
- Nəzarət et : monitorinq və siyasət, məqsədlər, tələblər və planlaşdırılmış fəaliyyətlə müqayisədə proseslərin, son məhsul və xidmətlərin (harada lazımdırsa) qiymətləndirilməsi və nəticələr haqqında hesabat.
- Təkmilləşdir: zəruriyyət olduqda, fəaliyyətin nəticələrinin yaxşılaşdırlması üçün tədbirlərin görülməsi.

**ISO 9001**

ISO 9001:2015 keyfiyyəti idarəetmə sisteminə tələbləri müəyyən edən beynəlxalqstandartdır. Bu beynəlxalq standart dünyanın 95 ölkəsinin ekspertlərinin iştirak etdiyi Beynəlxalq Standartlaşdırma Təşkilatının (ISO) 176 saylı Texniki Komitəsitərəfindən hazırlanıb.

ISO 9001 beynəlxalq standartında keyfiyyəti idarəetmə sisteminin əsas tələbləri qismində istehlakçının mənafeyinin qorunması, prosesin səmərəliliyinin təmin edilməsi, idarəetmə sisteminin təkmilləşdirilməsi, düzgün qərar qəbuletmə mexanizmi, istehsalçı ilə istehlakçı arasındakı müştərək maraqlardan doğan qarşılıqlı əlaqələrin vacibliyi kimi prinsiplər əsas götürülür.

ISO 9001 standartının tətbiqi təşkilatın davamlı inkişafının təmin olunması, istehsal göstəricilərinin yüksəldilməsi və inkişaf etdirilməsi, istehlakçıların tələbatlarını fasiləsiz təmin etməklə məhsul və xidmətlərin keyfiyyətinin

artırılmasına imkan verir.

ISO 9001 standartının tələbləri məhsulun tədarükündən, ölçüsündən və növündən asılıolmayaraq bütün təşkilatlar üçün nəzərdə tutulub.

2015-ci ildə ISO 9001 standartının yeni versiyası nəşr edilib. Bu versiya dünyanın 95 ölkəsinin ekspertlərinin iştirak etdiyi ISO-nun 176 saylı Texniki Komitəsi tərəfindən 3il ərzində işlənib.

2015-ci il versiyası nəşr edildikdən sonra əvvəlki 2008-ci versiyası, həmçinin ISO 9001:2008/Kop.1: 2009 adlı Taxniki düzəlişlər adlı sənəd qüvvədən düşmüş sayılır.

ISO 9001: 2015 versiyası ilə eyni vaxtda standartın ISO 9000: 2015 "Keyfiyyəti idarəetmə sistemi. Əsas müddəalar və lüğət" adlı standart hazırlanıb. Bu standartda ISO 9000 standartlar seriyasında istifadə olunan anlayış, termin və təriflər öz əksini tapıb.

ISO 9001-in yeni versiyasında əvvəkli 2008 versiyası ilə müqayisədə kifayət qədər ciddi dəyişikliklər edilib. İlk növbədə standartın maddələrinin sayı 10-a çatdırılıb.

Əvvəlki versiyadan fərqli olaraq yeni versiyada əsas diqqət KİS-in yaradılmasına təsir edən amillərə yox, KİS-nin tətbiqi nəticəsində əldə ediləcək potensial nəticələrə yönəldilib.

**ISO**

ISO (Standartlaşdırma üzrə Beynəlxalq Təşkilat) milli standart təşkilatlarının (ISO üzv ölkələri) dünya miqyaslı federasiyasıdır. Beynəlxalq Standartların hazırlanmasıişi bir qayda olaraq ISO-nun texniki komitələri vasitəsilə həyata keçirilir. Texniki komitənin fəaliyyət sahəsində maraqlı olan hər bir qurumun bu komitədə təmsil olunmaq hüququ vardır. Beynəlxalq təşkilatlar, hökumət və qeyri-hökumət təşkilatları da İSO ilə birlikdə bu fəaliyyətdə iştirak edir. ISO elektrotexniki standartlaşdırmanın bütün məsələləri ilə bağlı Beynəlxalq Elektrotexnika Komissiya (IEC) ilə sıx əməkdaşlıq edir.

## SİYASƏTİN YENİDƏN BAXILMASI

Bu siyasətə ən azı iki ildən bir İcraiyyə Komitəsi tərəfindən yenidən baxılmalı və təsdiq edilməlidir. O, istənilən vaxt İcraiyyəKomitəsinin razılığı ilə dəyişdirilə bilər. Bu siyasətin dərc edilmiş versiyası məcburi qüvvəyə malikdir.

## ƏLDƏ ETMƏK HÜQUQU

Hazırki siyasət işçi heyyətə çatdırılır, başa düşüləndir və təşkilat daxilində tətbiq olunur.

Dərc edilmiş siyasətin elektron versiyası ən son redaksiyadır və bütün istifadəçilər üçün əlçatandır.

## ÖHDƏLİKLƏR

Bu Siyasət lazımi qaydada nəzərdən keçirilmiş, razılaşdırılmış, qəbul edilmiş və təsdiq edilmişdir.

Cəmiyyətin bütün işçiləri bu sənəddə əks olunan tələbləri bilməlidirlər və onlara ciddi əməl etməyə borcludurlar.

Bu qaydaları pozduğu aşkarlanan hər hansı bir işçi, işinə xitam verilməsinə qədər intizam məsuliyyətinə cəlb edilə bilər.

Şirkət rəhbərliyi bu sənədi təsdiq edərək bu Siyasətin icrasınanəzarət məsuliyyətini özündə saxlayır.

## GİZLİLİK BƏYANATI

Müəssisə rəhbərliyi istifadəçilərə bildirir ki, Adobe(R) PDF formatı Beynəlxalq Standartlaşdırma Təşkilatı ISO 32000-2:2017 standartıdır və faktiki olaraq bütün dünyada elektron sənəd idarəetməsi sahəsində standart kimi tanınır və ötürülən məlumatların keyfiyyətinə və etibarlılığına zəmanət verməyə imkan verir. Xarici istifadəçilərin diqqətini ona yönəldirik ki, PDF faylları ilə işləmək üçün hər hansı proqram təminatının quraşdırılması və istifadəsinin mümkün nəticələrinə görə məsuliyyət tamamilə onun

tərtibatçısına, eləcə də onu birbaşakompüterinizdə quraşdırmış şəxsə (şəxslərə) aiddir və bizim müəssisə rəhbərliyi bu məsələlərlə bağlı iddiaları qəbul etmir.